# Xalqın layiqli övladı



*Qartal kimi qanadlanıb fəzaları aşarsan*
*Biz üləviyyət aləminin qucağında yaşarsan.*
*Sən ki, həyat aşiqisən...qoy bu eşqin var olsun...*
*Nəsillərdən-nəsillərə adın yadigar olsun!*

**Səməd Vurğun**

Üzeyir Hacıbəyov elə dahi sənətkarlardandır ki, zaman, tarix ötüb keçdikcə ona xalq məhəbbəti qat-qat artır, yaradıcılığı elmi və bədii fikri daha çox özünə cəlb edir. O, milli operamızın atası, dahi bəstəkar, istedadlı yazıçı, jurnalist və pedaqoq kimi tanınmışdır. Əbədi şöhrəti ona həmişəyaşar «Leyli və Məcnun»u, xalqlar dostluğunu tərənnüm edən «Əsli və Kərəm»i, qəhrəmanlıq dastanı olan «Koroğlu»nu, «O olmasın, bu olsun»u, dünyanı gəzib dolaşan «Arşın mal alan»ı, «Sənsiz»i qazandırmışdır.

Üzeyir bəy yaratmış olduğu bütün əsərlərini geniş xalq kütləsi üçün yazmışdır. Əsərə qiymət verən də, yaşadan da məhz xalqdır. Məhz bu xalq tərəfindən Azərbaycan musiqisinin inkişafındakı işlərin müqabilində Üzeyir bəy müxtəlif mükafatlarla, orden və medallarla təltif olunmuşdur.

Onun əldə etdiyi ilk mükafat 1919-cu ilə təsadüf edir. Bununla onun mükafatlarının sayı bitməmiş, illər ötdükcə bir-birindən dəyərli, üstün mükafatlar onun yaradıcılıq yolunu izləmişdir.

Belə ki, Üzeyir Hacıbəyovun 1919-cu ildə bəstələmiş olduğu «Azərbaycan Marşı» və «Azərbaycan Milli Marşı» həmin ildə Türkiyədə keçirilmiş türk bəstəkarlarının marşları yarışmasında səslənmişdir. «Azərbaycan Milli Marşı» bu yarışmada birincilik qazanmış və marşın müəllifi 15000 manatla mükafatlandırılmışdır.

Hər iki marş Üzeyir Hacıbəyovun ev-muzeyində qorunan türk musiqişünası Etem Üngörün Ankarada nəşr etdirdiyi (1966) «Türk marşları» kitabında çap olunub.

1932-ci ildə Üzeyir Hacıbəyovun idarəsi altında, «Rote Fane» mədəniyyət parkında, «Müdafiə evi»ndə, M.F.Axundov adına Böyük Dövlət Opera Teatrında və başqa yerlərdə Böyük Şərq konsertləri təşkil edilirdi. Bu konsertlərdə Üzeyir bəyin, M.Maqomayevin, A.Zeynallının əsərləri səsləndirilirdi.

1932-ci ildə bu növ konsertləri bacarıqla təşkil etdiyinə görə Üzeyir bəy Azərbaycan MİK yanında Azərbaycan Radio Verilişləri Komitəsinin fərmanı ilə təltif olunmuş və 1935-ci ildə Azərbaycan SSR əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Üzeyir bəy 1935-ci ildə sovet əsgərlərinə mədəni-bədii xidməti sahəsində səmərəli işinə görə incəsənət işçilərinin Azərbaycan Həmkarlar İttifaqı və Mərkəzi Hərbi-Hava komissiyası tərəfindən fəxri fərmanla, 1936-cı ildə isə sovet əsgərlərinə mədəni xidməti sahəsində səmərəli işinə görə Zaqafqaziya hərbi dairəsinin fərmanı ilə təltif edilmişdir.

Ü.Hacıbəyov öz gərgin yaradıcılıq işini II dünya müharibəsi illərində də dayandırmamış, bu illərdə əsl vətənpərvərlik timsalına çevrilmişdir. Qazancının müəyyən hissəsini qələbə fonduna köçürən bəstəkar hospitallarda, hərbi hissələrdə konsertlər təşkil edir, döyüşçülərə şəxsi vəsaiti hesabına bağlamalar göndərir, həm də əsgərləri döyüşlərə, qələbəyə ruhlandıran mahnılar, marşlar, cəngilər yazırdı. Müharibə illərində göstərdiyi rəşadətə görə Üzeyir bəy «II Dünya müharibəsi illərində fədakar əməyə görə» medalı ilə təltif edilmişdir.

II dünya müharibəsi illərində Üzeyir Hacıbəyov Qızıl Orduya – hərbi tank qüvvələrinin alınması üçün də maddi köməklik edir. Bunun müqabilində Stalin Üzeyir bəyə təşəkkür teleqramı göndərir:

***Yoldaş Hacıbəyov, Sizə, Qızıl Ordunun hərbi tank qüvvələrinə göstərdiyiniz köməkliyə görə təşəkkür edirəm. Qızıl Ordunun təşəkkürünü və mənim salamımı qəbul edin.***

*Stalin*

*10 mart 1943-cü il*

Üzeyir bəyin yaradıcılığının şah əsəri sayılan «Koroğlu» operası 1937-ci ildə tamamlanmışdır. Həmin ilin aprel ayının 30-da Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulur və misli görünməmiş bir uğur qazanır. Bu uğurdan sonra, 1937-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə əməkdar incəsənət xadimi Üzeyir Hacıbəyova Azərbaycan SSR xalq artisti adı və 25 min manat mükafat verilir.

Məlum olduğu kimi, 1938-ci

ildə Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti dekadası mədəniyyət tariximizin ən gözəl səhifələrini təşkil edir. Şübhəsiz, dekada ictimai həyatımızın inkişafında da böyük rol oynamış və bu sovet xalqları arasında dostluğun möhkəmlənməsinə səbəb olmuşdur.

Mədəni həyatımızda şanlı hadisə olan bu dekadanın yüksək səviyyədə hazırlanması və keçirilməsində böyük əmək sərf edən, həm də dekadanın diqqət mərkəzində duran şəxs Üzeyir Hacıbəyov idi.

***Azərbaycan incəsənətinin iştirakçıları, həmçinin, Üzeyir Hacıbəyov «Koroğlu» operası və «Arşın mal alan» operettası ilə Moskva zəhmətkeşləri, partiya və hökumət rəhbərləri, böyük Stalinin qarşısına çıxmalı idilər. Bu böyük məsuliyyət idi.***

Nəhayət, dekada Kremldə, aprelin 5-də Azərbaycan Dövlət Opera və Balet Teatrının artistlərinin ifasında «Koroğlu» operası ilə başlayır. Operada milli musiqi alətləri ilə simfonik orkestrin alətlərinin sintezindən istifadə edilməsi tamaşaçılar arasında böyük marağa səbəb olmuşdur.

Həmin ildə Üzeyir bəy «Bakinski raboçi» qəzetində çıxış edərək demişdir:

... Mən çox şadam – birinci tamaşada bizim rəhbərimiz, yoldaş Stalin iştirak etdi. Onunla yanaşı partiya rəhbərləri də var idi. Dekadanın açılışında keçirdiyim xoşbəxt dəqiqələr mənə, yeni-yeni nailiyyətlər əldə etməyə enerji verir...

Bəli. Stalin tamaşada iştirak etdi və operanı elə hədsiz dərəcədə bəyəndi ki, qəbul olunmuş reqlamentə əsasən hər tamaşa adətən iki dəfə göstərildiyi halda, «Koroğlu» operası böyük rəhbərin göstərişi ilə üçüncü dəfə göstərildi.

Üzeyir bəyin yaradıcılıq təkamülünün zirvəsi olan, 1932-36-cı illərdə yazılmış «Koroğlu» operası ona təkrarolunmaz şöhrət gətirmişdir.

Dekada bitdikdən sonra, 1937-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı, 1938-ci ildə isə Üzeyir bəy Ali Sovetin qərarı ilə «Lenin» ordeni ilə təltif edilmişdir. 1938-ci ildə Üzeyir bəy Azərbaycan SSR opera incəsənətinin inkişafı işindəki yüksəlişinə görə SSRİ xalq artisti adına layiq görülmüşdür.

1938-ci ildə SSRİ Xalq Komissarları Soveti Üzeyir Hacıbəyovu Azərbaycan opera sənətinin yaranması, inkişafı və «Koroğlu» operasına görə «M-1» markalı maşınla mükafatlandırmışdır.

1941-ci ildə (bəzi mənbələrə görə 1940-cı il) SSRİ xalq artisti, professor Üzeyir Hacıbəyov «Koroğlu» operasına görə ikinci dərəcəli Stalin və SSRİ Dövlət mükafatlarına layiq görülmüşdür.

***Üzeyir bəy milli musiqiçi kadrlar yetişdirmək üçün təhsil ocaqları yaradır. O, Azərbaycanda ilk musiqi məktəblərini, musiqi texnikumlarını təşkil etmiş, Azərbaycan Dövlət Konservatoriyasının əsasını qoymuş, həmçinin, xalq çalğı alətlərinin «notlu» orkestrini, simfonik orkestri, dövlət xorunu, simli kvarteti yaratmış, bir sözlə Azərbaycan professional milli musiqisinin banisi olmuşdur.***

Ümumən, Azərbaycan, rus, dünya klassik ədəbiyyatı və incəsənətinin mütərəqqi ənənələrini dərindən qavramış, xalqın mədəniyyətini yüksəltmək eşqi ilə yaşayıb-yaratmış bəstəkar ömrünün təqribən 45 ilini bu işə sərf etmişdir.

Gənc yaşlarından vətəninin və xalqının gələcəyini düşünən, təəssübünü çəkən Üzeyir bəy baş verən ictimai-siyasi hadisələrə münasibət göstərərək həmişə öndə olmuşdur. O, gördüyü bütün işləri böyük məsuliyyətlə, bacarıqla, yüksək peşəkarlıqla, humanist qəlblə həyata keçirmişdir. Müsabiqələrin, festivalların təşkilatçısı və münsiflər heyətinin sədri olmuş Üzeyir bəyin həyatının ən parlaq anları 30-40-cı illərə təsadüf edir.

Üzeyir bəyin bəstəkar, alim, publisist kimi gördüyü işlərlə yanaşı, ictimai-xadim kimi də vətəni qarşısındakı xidmətləri əvəzsizdir. Bütün görülən bu işlərin müqabilində xalq, öz elçisi kimi Üzeyir bəyin deputatlığa namizədliyini irəli sürür.

Üzeyir bəy ilk dəfə 1925-ci ildə Azərbaycan SSR-nin deputatı, bundan sonra daha iki dəfə (1937 – I çağırış, 1946 – II çağırışdan ömrünün sonunadək) Naxçıvan seçki məntəqəsindən SSRİ Ali Sovetinə deputat seçilmişdir. Üzeyir bəyin deputatlıq biletləri muzeydə nümayiş etdirilir. (Qeyd edək ki, hər iki bilet 100 nömrəlidir. Bu biletlər yiyəsinə dəmiryol və dəniz nəqliyyatından pulsuz istifadə etmək imkanı verir).

Üzeyir Hacıbəyov XX əsr Azərbaycan musiqisinin ilk böyük yaradıcısı olmaqla yanaşı həm də, bu musiqinin araşdırıcısı, tədqiqatçısı, onun əsaslarını və prinsiplərini dərindən-dərinə bilən və şərh edən, ümumiləşdirən, sistemləşdirən görkəmli alim olmuş, musiqi tədrisi vasitələrinin yazılması və nəşri işində gərgin əməyi onu mahir bir musiqi nəzəriyyəçisi kimi tanıtmışdır.

***Uzun illərin elmi tədqiqatları nəticəsində «Azərbaycan xalq musiqisinin əsasları» adlı elmi fundamental əsərini doğma xalqına bəxş etmiş bəstəkar, bu əsər üzərində 20 il (1925-1945) işləmişdir.***

Üzeyir bəy 1940-cı ildə P.İ.Çaykovski adına Moskva Konservatoriyasında «Azərbaycan xalq musiqisinin əsasları» mövzusunda məruzə etmiş və professor adı almışdır.

«Azərbaycan xalq musiqisinin əsasları» kitabı Üzeyir Hacıbəyovun Azərbaycan lad-məqam sisteminin öyrənilməsinə aid sanballı tədqiqat əsəridir. İlk dəfə 1945-ci ildə (rus dilində) Bakıda çap olunmuş əsəri müəllif belə səciyyələndirir: «Mənim bu əsərim Azərbaycan xalq musiqisinin əsas cəhətlərini öyrənmək üçün nəzəri bir vəsaitdir və Azərbaycan ladları əsasında musiqi yazan bəstəkarlara bir yaradıcılıq köməyidir».

Bu monoqrafiya pedaqoji baxımdan tədris materialı kimi də qiymətlidir. Artıq 50 ildən çoxdur ki, onun əsasında «Azərbaycan xalq musiqisinin əsasları» kursu Azərbaycan Dövlət Konservatoriyasının bütün fakültələrində, həmçinin musiqi texnikumlarında və musiqi məktəblərində tədris edilir. Monoqrafiya indiyədək Bakıda dəfələrlə nəşr olunmuşdur: 1957, 1962, 1965 (Azərbaycan dilində), 1985 (Azərbaycan, rus, ingilis dillərində). Bu kitabdan hal-hazırda da tədris ocaqlarında, elmi əsərlərin yazılmasında qiymətli töhfə kimi istifadə olunur.

***Musiqi sahəsindəki işlərinə görə və anadan olmasının 60 illiyi münasibətilə Üzeyir bəy 1945-ci ildə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmiş, həmin ildə də Azərbaycan SSR Elmlər Akademiyasına həqiqi üzv seçilmişdir. Qeyd edək ki, 1945-ci ildə Üzeyir Hacıbəyov tərəfindən Azərbaycan SSR Elmlər Akademiyası nəzdində Memarlıq və İncəsənət İnstitutu yaradılmış, bəstəkarın 60 illik yubileyi münasibətilə institutа onun adı verilmişdir.***

1945-ci ildə R.Qliyer, N.Tixonov, A.Moldıbayev, Y.Şaporin, M.Şoloxov, həmçinin, Ü.Hacıbəyov Stalin mükafatları komitəsinin incəsənət və ədəbiyyat sahəsindəki fəaliyyət həcminin artması ilə əlaqədar SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Stalin mükafatları komitəsinin tərkibində təsdiqlənmişlər.

Üzeyir Hacıbəyovun incə yumorla zəngin olan «Arşın mal alan» operettası 1913-cü ildə yazılmışdır. Dörd dəfə lentə alınmış «Arşın mal alan» operettasının ilk ekran təcəssümü Svetlovun 1917-ci ildə çəkdiyi səssiz film idi.

Üzeyir bəyə çox böyük uğur gətirmiş bu komediya 67 dilə tərcümə edilmiş, 120-dən artıq səhnədə nümayiş etdirilmiş, dünyanın 50 ölkəsində tamaşaya qoyulmuşdur.

***Müəllifinə hədsiz uğur, şöhrət bəxş edən «Arşın mal alan» həm də onun böyük əsəb gərginliyinə səbəb olmuşdur. Belə ki, Üzeyir bəyin icazəsi ilə bu əsəri erməni dilinə tərcümə edib, bir müddət Gürcüstanda nümayiş etdirən, milliyyətcə erməni olan S.Maqalyan ABŞ-a mühacirət edir. «Arşın mal alan»ın librettosunu və not yazısını da özü ilə aparır. Bu əsəri orada səhnələşdirir və əldə edilən vəsaitə Amerikada «Arşın mal alan» adlı mehmanxana tikdirir. 1930-cu ilin sonlarında rejissor R.Mamulyan bu operetta əsasında eyniadlı film çəkir.***

1942-ci ildə sovet əsgərləri qarşısında çıxış etmək üçün İrana gedən Azərbaycanın bir qrup ədəbiyyat və incəsənət xadimi orada Mamulyanın «Arşın mal alan» filminə baxarkən, titrlərdə Üzeyir Hacıbəyovun adının olmadığını görürlər. Onlar Bakıya qayıtdıqları zaman bu xəbəri Üzeyir bəyə çatdırırlar. Üzeyir bəy öz növbəsində M.C.Bağırova narazılığını bildirir. Bundan sonra Stalinin göstərişi ilə 1945-ci ildə Bakı kinostudiyasında «Arşın mal alan» filmi çəkilir. Filmin titrlərində bu ölməz sənət əsərinin müəllifinin dahi Üzeyir Hacıbəyov olduğu göstərilir. S.Rəhmanın ssenarisi əsasında çəkilmiş bu filmin rejissorları R.Təhmasib və N.Leşşenko idi. Filmdə Əsgər rolunu R.Behbudov, Gülçöhrə rolunu isə L.Bədirbəyli ifa edirdilər.

***1946-cı ildə Üzeyir bəy «Arşın mal alan» kinofilminə görə ikinci dərəcəli Stalin və «Arşın mal alan» kinofilminin musiqisinin müəllifi kimi SSRİ Dövlət mükafatına layiq görülür.***

1947-ci ildə Üzeyir bəy Azərbaycan SSR Sovet Bəstəkarları İttifaqına üzv seçilir.

1966-cı ildən 1970-ci illərə kimi ən yaxşı musiqi əsərləri üçün Üzeyir Hacıbəyov adına Respublika mükafatı təsis edilmişdi. Mükafat hər iki ildən bir verilirdi. Mükafatla təltif olunanlara «Üzeyir Hacıbəyov mükafatı laureatı» diplomu, bəstəkarın barelyefi olan döş nişanı və pul (iki min beş yüz manat) mükafatı təqdim edilirdi. 1970-ci ildə Azərbaycan SSR Dövlət mükafatı təsis edildikdən sonra Üzeyir Hacıbəyov adına Respublika mükafatı ləğv olunmuş və Azərbaycan SSR Dövlət mükafatına daxil edilmişdir.

Bu mükafata 1967-ci ildə üç şəxs – Niyazi, S.Ələsgərov və Ş.Qurbanov layiq görülmüşlər.

Həyat aşiqi olan, qartal kimi qanad açıb fəzaları aşan Üzeyir Hacıbəyov sənəti, onun dərin humanizmi, xalqımıza olan böyük məhəbbəti bəstəkara əbədi yaşamaq, sevilmək hüququ qazandırmış, onu xalqımızın şöhrət tacı etmişdir.

**Sabina HAFİZOVA,**
**Üzeyir Hacıbəyovun ev-muzeyinin əməkdaşı**